Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun qeydə alınmış namizəd Cəmil Poladxan oğlu Həsənlinin səlahiyyətli nümayəndəsi Əliyev Rüfət İdris oğlunun 02 oktyabr 2013-cü il tarixli 13 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 02 oktyabr 2013-cü il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Əliyev Rüfət İdris oğlunun 02 oktyabr 2013-cü il tarixli 13 saylı müraciətini araşdıraraq müəyyən etdim:

2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Əliyev Rüfət İdris oğlu müraciət edərək 30 saylı Suraxanı birinci seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü Oktay Misir oğlu Əliyevin döyüş kontuziyası alması səbəbindən onun dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü olmasının qanunvericiliyə zidd olmasını bildirmiş və bu səbəbdən onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydalara haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü kimi tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Araşdırma prosesində ərizəçiylə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmiş, araşdırmaya yardım etməyə dəvət olunmuşdur.

Araşdırma aparılarkən toplanmış sübutların mötəbərliyinə və mümkünlüyünə xüsusi əhəmiyyət verilmiş, həmin sübutların mənbələrinin və əldəetmə üsullarının qanunvericiliyin tələblərinə tam cavab verməsi üçün müvafiq tədbirlər görülmüşdür.

Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, ərizəçinin müraciəti tərəfimdən qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma zamanı dairə seçki komissiyasının üzvü O.Əliyevin xəstəliyi ilə bağlı təsdiqedici fakt aşkarlanmamışdır. Bununla belə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 22.4.5-ci maddəsində qeyd olunan müvafiq xəstəlik səbəbindən məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında fəaliyyət qabiliyyəti olmayan və məhdud fəaliyyət qabiliyyətli hesab edilməsi halı istisna olmaqla, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 22.1, 22.2 və 22.3-cü maddələrinə əsasən müvafiq seçki komissiyası üzvünün səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi əsaslarında şəxsin xəstəliyinə görə xitam vermə əsası müəyyən edilməmişdir.

Ona görə də ərizəçinin müraciəti təmin edilməməlidir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və “Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində qeydə alınmış namizəd Cəmil Həsənlinin səlahiyyətli nümayəndəsi Əliyev Rüfət İdris oğlunun 02 oktyabr 2013-cü il tarixli 13 saylı müraciəti təmin edilməsin.

2. Rəy verildikdən sonra növbəti 18 saatdan gec olmayaraq dərc olunsun (internet səhifəsində yerləşdirilsin) və müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov